## İstehlak bazarında qiymətlərin dəyişməsi haqqında

2023-cü ilin yanvar-fevral aylarında istehlak qiymətləri indeksi 2022-ci ilin yanvar-fevral aylarına nisbətən 113,9 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 117,3 faiz, qeyri-ərzaq məhsulları üzrə 112,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 110,6 faiz təşkil etmişdir.

2023-cü ilin fevral ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,5 faiz, əvvəlki ilin fevral ayına nisbətən 114,1 faiz təşkil etmişdir.

**İstehlak qiymətləri indeksi, faizlə**

| | 2023-cü ilin fevral ayı | | 2023-cü ilin yanvar-fevral ayları |
|---|---|---|---|
| | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq ayına nisbətən | 2022-ci ilin yanvar-fevral aylarına nisbətən |
| **Cəmi məhsullar və xidmətlər** | **101,5** | **114,1** | **113,9** |
| ərzaq məhsulları, içkilər və tütün məmulatları | 101,8 | 117,1 | 117,3 |
| qida məhsulları | 101,8 | 117,7 | 117,9 |
| spirtli içkilər | 100,6 | 104,8 | 105,4 |
| tütün məmulatları | 100,0 | 103,5 | 103,5 |
| qeyri-ərzaq məhsulları | 100,4 | 112,2 | 112,2 |
| ödənişli xidmətlər | 102,0 | 111,4 | 110,6 |

***İstehlak qiymətləri indeksi, artan yekunla əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə***




2023-cü ilin fevral ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,8 faiz, əvvəlki ilin fevral ayına nisbətən 117,1 faiz təşkil etmişdir.

***2023-cü ilin fevral ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi, məhsul qrupları üzrə, əvvəlki aya nisbətən, faizlə***




Cari ilin fevral ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma yulaf yarmasının, düyünün, vaflinin, peçenyenin, mal və qoyun ətinin, balıq konservlərinin, sterilizə olunmuş üzlü südün, yoqurtun, pendirin, zeytun yağının, naringinin, narın, almanın, bananın, soğanın, kartofun, kələmin, xiyarın, pomidorun, şəkərin, konfetlərin, çayın, kola içkisinin, meyvə şirəsinin, arağın, ucuzlaşma isə əsasən qarabaşaq yarmasının, yumurtanın, günəbaxan və qarğıdalı yağlarının, mərcinin qiymətlərində müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

2023-cü ilin fevral ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,4 faiz, əvvəlki ilin fevral ayına nisbətən 112,2 faiz təşkil etmişdir. Fevral ayında əvvəlki ayla müqayisədə qeyri-ərzaq məhsullarından daha çox bahalaşma boyaların, tozsoranların, soyuducuların, elektrik çaydanlarının, sintetik yuyucu vasitələrin, sabunların, diş pastalarının, dezodorantların, ucuzlaşma isə əsasən kəsilmiş taxtaların, televizorların və yazı kağızlarının qiymətlərində müşahidə olunmuşdur. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

2023-cü ilin fevral ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 102,0 faiz, əvvəlki ilin fevral ayına nisbətən 111,4 faiz təşkil etmişdir. Fevral ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən daha çox bahalaşma metro nəqliyyatında, şəhərdaxili, şəhərətrafı və şəhərlərarası avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərində, mənzillərin icarə haqlarında, paltarların və məişət cihazlarının təmiri xidmətlərinin qiymətlərində, ucuzlaşma isə hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunmuşdur. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Əlaqə telefonu: 377-10-70 (22-55)